# “Atamdan qorxuram”

## Burak Özçivit: ”Əslində biz Murad Bozla iki rəqib də ola bilərdik, amma fikrimizi dəyişdik, qardaş olduq”

**Türkiyənin tanınmış iki siması - aktyor Burak Özçivit ilə müğənni Murat Boz ”Kardeşim benim” filmi ilə gündəmi zəbt ediblər. Hazırda iki məşhurun iştirak etdiyi filmin Türkiyədə və dünyanın müxtəlif ölkələrində qala gecələri keçirilir.**

**Filmin baş prodüseri Burak Özçivit Türkiyənin ”Hürriyet” qəzetinə müsahibə verib.**

### İSTƏDİYİM İŞLƏRƏ İMZA ATMAQ ÜÇÜN ÖZÜMƏ BİR ŞİRKƏT QURDUM

**- Sizi daha çox dram janrlı filmlərdə görürük. Komediya filmlərinə çəkilməkdən niyə qorxursunuz?**

- Aktyorun işi fərqli obrazlar canlandırmaqdan ibarətdir. Mənim rol aldığım ilk film də məhz komediya idi. Əslində mənim günlük həyatım çox əyləncəli və maraqlı keçir. Hesab edirəm ki, komediya filmləri həyatıma daha yaxındır. ”Aşk sana bənzər” filmində dramatik obraz canlandırsam da, ”Kardeşim benim” filmində komedik obrazla tamaşaçıların qarşısına çıxdım.

**- İnsan rol oynadığı filmin rəhbəri olanda sizin kimi belə ”havalı” danışır.**

- (Gülür) Hər bir aktyor kimi mənim də öz hədəflərim var. Bu filmi çəkməkdə niyyətim onun rəhbəri olmaq deyildi. Həqiqətən istədiyim işlərə imza atmaq üçün özümə bir şirkət qurdum. İllərdir ki, mənə müxtəlif ssenarilər təqdim olunur. Təəssüflər olsun ki, o hekayələrin heç biri ürəyimə yatmadı. Mən də öz hekayələrimi yazmağa başladım. Qeyd edim ki, bu şirkəti qurmaq üçün bankdan kredit götürmüşəm. Bu qədər uzun müddətdir gözləmişkən, heç olmasa ona dəysin, dedim. Timur adlı dostum mənə ”Gəl birlikdə şirkət quraq” deyəndə, çox sevindim və onunla birlikdə ”Kardeşim benim” filmini ərsəyə gətirdik.

**- Rəhbər olmaq da çox rahat işdir. Təsəvvür edin ki, bütün filmlərdə baş roldasınız, afişalarda ən öndə sizin rəsminiz gedir.**

- Heç də belə deyil. Əvvəllər oturub gələcək haqqında düşünürdüm. Amma indi bir az böyümüşəm. Nələrin baş verəcəyini artıq zaman göstərəcək. Bizim işimiz elədir ki, hər şey cəmiyyətin sənə olan münasibətindən asılıdır. Bəli, öz filmlərimi çəkib onu xalqıma nümayiş etdirmək istəyirəm. Ancaq bu o demək deyil ki, çəkdiyim bütün filmlərin baş rollarında mən olmalıyam.

**- Hazırda aktyorluqla bərabər həm də prodüserlik edirsiniz. Yəqin ki, bir neçə ildən sonra rejissor da olarsınız?**

- Niyə də olmasın. Mən universitetin fotoqrafçılıq fakültəsini bitirmişəm. Bəzən aktyor olaraq o hissə qapılıram, ancaq nəticədə film sahəsinin ticarəti ilə məşğulam. Bilirəm ki, bu işdə özümü tam hazır hiss etməsəm, rejissor kürsüsünə oturmaram.

### İMKAN TAPDIQCA BOLLUCA MESAJLAŞIRIQ

**- 3 il bundan öncə sizdən müsahibə alarkən çox utancaq, dediyi sözləri həyəcanla səsləndirən bir gənc idiniz. İndi isə qarşımda özünə güvənən bir Burak dayanıb.**

- Məncə, hər bir insan öz üzərində işləməli və inkişaf etməlidir. İnsan özünə güvəndikdən sonra ona böyük bir cəsarət gəlir. Əvvəllər özümə daha çox diqqət edirdim. Misal üçün, xəyal gücüm hər zaman məndən bir addım öndə idi və bunun üçün də davamlı olaraq planlar qururdum. Xəyalını qurduqlarım həyata keçməyəndə pessimizə qapılırdım. Artıq xəyal gücümlə deyil, real həyata görə yaşayıram. Təsəvvür edin ki, həftənin altı günü gündə 18 saat işləyirəm. ”Çalıquşu” filmi 120 dəqiqə idi. Hər dəfə çəkilişlər başlayanda ”çox yorulduq” deyə üsyan edirdik. İndi ”Kara sevda” serialı 150 dəqiqədir. Təsəvvür edin ki, biz nələr çəkirik.

**- Deyəsən artıq tükənmişlik sindromu yaşayırsınız?**

- Hələ ki elə bir depressiyaya düşməmişəm. İşimi sevirəm, yorulanda ”yola davam et, Burak” deyə həm zehini, həm də fiziki olaraq özümü toparlayıram.

**- Yəqin ki, sevgiliniz, sənət yoldaşınız Fahriyyə Evcenle hərdən məktublaşırsınız.**

- Məktublaşma artıq keçmiş dövrdə qaldı, indi mesaj dövrüdür (gülür). Biz də imkan tapdıqca bolluca mesajlaşırıq.

**- ”Mən çox yaraşıqlıyam, məni gözləməyə dəyər” deyə heç sevgilinizi gözlətmisinizmi?**

- İkimiz də eyni işdə çalışdığımız üçün bunun necə bir dünya olduğunu bilirik. Ancaq 150 dəqiqəlik filmə alışqan olmadığı üçün ”Bu iş nə üçün sabaha qədər davam edir?” deyə hərdən mənə sual verir. Bunu təkcə Fahriyye deyil, ətrafımdakı insanlar da soruşur. Mən Fahriyyəyə bildirirəm ki, o, indiyə qədər 150 dəqiqəlik bir serialda rol almayıb, əgər alsaydı, məni anlayardı.

**- Təsəvvür edin ki, Fahriyyə sizə günün yalnız qısa hissəsini həsr edir. Siz onu heçmi qısqanmazsınız?**

- İçimdəki bütün qısqanclıq hissləri yoxa çıxıb. Həyat mənə bütün kaprizlərimi kənara qoymağı öyrətdi. Biz Fahriyyə ilə bir-birimizi çox yaxşı tanıyırıq. Ona görə aramızda belə problemlər olmaz. Fahriyyə məni çox yaxşı başa düşür. Bu müsahibə bir az səmtini dəyişir. Bəs deyirdiniz yalnız film haqqında danışacağıq (gülür)?

### MURAD BOZ MƏNDƏN KÖMƏK İSTƏDİ

**- Ən sevdiyiniz mövzuya, yəni sizə dönək. Güzgünün qarşısından ayrılmadığınız doğrudurmu?**

- Serial çəkilişlərinə başlayanda, güzgüyə baxmağı çox sevirəm. Axı ekrana çıxırıq. Əslində, bu çox normal bir şeydir. Evdə güzgüyə nə vaxt baxdığım yadıma gəlmir. Güzgülərlə münasibətimin yaxşı olması tamamilə işlə bağlıdır.

**- Bəs, Murad Bozla dostluğunuz nə zamandan başladı?**

- 7-8 ildir ki, biz onunla dostuq. Muradın ən çox sevdiyim tərəfi özünə güvənməyidir. Misal üçün, o, aktyorluq sənətini o qədər də dərindən bilmir. Ancaq buna baxmayaraq, çəkiliş zamanı özünü çox rahat hiss edir. Çəkiliş prosesinə ”Mən bu işi bilmirəm, mənə kömək et” deyə gəldi. Biz də əlimizdən nə gəlirsə, onu da etdik. Murad qəribə bir insandır. Mənə görə, o, bir aktyor üçün ideal tərəf müqabilidir. Bir insanla eyni rolu paylaşmaq futbol oynamağa bənzəyir. Sanki futbolda eyni komandadakı insanla paylaşırsan. Qarşındakı insan sənə necə münasibət bəsləyirsə, sən də ona eyni münasibəti bəsləyirsən. Murad da mənim kimi çox enerjili insandır. Üçlüyü dolduran üçüncü insan - Aslı Enver bizə qatıldıqdan sonra komandamız tamamlandı və ortalığa gözəl bir iş çıxdı.

**- Murad Bozla bir filmdə çalışmaq təklifi sizdənmi gəldi?**

- Əslində, mən ”Aşk sana bənzər” filminin ikinci bölümünü çəkmək istəyirdim, sonra fikrimi dəyişib yeni bir layihə üzərində işləməyə qərar verdim. O qənaətə gəldim ki, Murad Bozla mənim həyatdakı münasibətim çox yaxşıdır və beləliklə, biz Muradla birlikdə yemək yedik. Mən ”Ağlımda belə bir layihə var” deməyə başlamışdım ki, Murad cavab verdi ki, təklif səndən gəlibsə, ssenariyə baxmağıma ehtiyac yoxdur, mən səninlə bütün layihələrdə varam. Hər şey anidən oldu.

**- Və siz qardaş oldunuz?**

- Türk xalqının bizə olan güvənini göz önünə gətirdik və belə qərara gəldik ki, bizdən iki qardaş olsa, insanlar daha maraqla izləyər. Əslində biz iki rəqib də ola bilərdik, sonra fikrimizi dəyişdik ki, bu belə olmamalıdır. Biz türk xalqına müraciət edirik. Hər axşam ekran vasitəsilə onların evlərinə qonaq oluruq. İnsanlar bizi öz ailələrinə örnək olaraq görür. Filmdə bir-birimizi anlayan qardaşlar deyilik. Nə qədər mübahisə ediriksə, o qədər də bir-birini anlamayan iki qardaşın hekayəsini yazdıq.

**- Bəs çəkiliş prosesində nələr yaşandı?**

- Çəkiliş prosesi çox maraqlı keçdi. Mən çətin insanam. Ancaq Muradla çox yaxşı yola gedirəm. Çəkiliş prosesi diqqətsiz keçdi. Yəni hər problemin üzərində dayanmadıq. Murad Boz uşaq kimidir. Mən əslində elə şeyləri sevmirəm. Ancaq onun elə bir aurası var ki, bir də baxırsan, sən də onunla bərabər uşaqlaşırsan. Beləcə, çəkilişlər sona çatdı.





### ŞƏKİLLƏRİM ŞİRKƏT TƏRƏFİNDƏN ZİBİL QUTUSUNA ATILMIŞDI

**- ”Kardeşim benim”in çəkilişləri necə gün çəkdi?**

- Biz nəzərdə tutmuşduq ki, filmi beş həftəyə bitirəcəyik. Ancaq ilk 4 gün çəkiliş edə bilmədik. Çəkilişlərin ilk günü bir az həyəcan keçirdik. Maşınımız xarab oldu, hava buludlu oldu. Sonra hiss etdim ki, mən bu filmi təftiş edirəm. Bu gedişlə heç bir nəticə əldə edə bilməyəcəyimi anladım və işə başladım.

**- Bəz sizi ilk dəfə kim kəşf etdi?**

- Atam məndən xəbərsiz şəkillərimi Best Model gözəllik yarışına göndərmişdi. Ancaq təəssüflər olsun ki, mənim şəkillərim şirkət tərəfindən zibil qutusuna atılmışdı. Təşkilatçı son anda vəziyyəti hiss edib, mənim şəkillərimi zibil qutusundan çıxarmışdı. Və beləliklə mən müsabiqəyə qatıldım.

**- Zamanında ”Musallat” adlı bir qorxu filminə çəkilmişdiniz.**

- Bu, sənətə yeni gələndə yeni çəkildiyim ilk filmlərdən idi. Zarafat bir yana, o filmin çəkilişlərində çox qorxmuşdum. Ancaq kim bilir, bəlkə yenidən qorxu filmi üzərində işlədim.

**- Nəzərə gəlməkdən qorxursunuzmu?**

- Əslində, nəzərin olduğuna inanmağa çalışıram, ancaq alınmır. Günümün 3 saatı əsnəməklə keçir.

### PROBLEMLƏRİM HAQDA HEÇ KİMLƏ DANIŞMIRAM

**- Güzgüyə baxanda ”Necə də yaraşıqlı oğlanam” deyə öz-özünüzə sual edirsinizmi?**

- Gözlərim heç də pis deyil (gülür). Sağ olsun kirpiklərim, mənə mənalı baxmağıma kömək edir. Heç vaxt elə şeylər deməmişəm. Əslində, özümlə bağlı içimdə o qədər problemlər var ki, onu heç kimlə danışmıram.

**- ”Kara sevda” serialının rejissoru da bu mənalı baxışları kəşf edib deyəsən. Çünki serialda davamlı olaraq bu mənalı baxışları yaxınlaşdırır, onu göz önünə gətirir.**

- Bu layihəni danışarkən rejissor demişdi ki, serialı tamamən qara gözlər üzərinə cəmləyəcəm və serialın özəlliyi bu olacaq. Ona görə də serialda bəzi kadrları mənim üzümə yaxın çəkir.

**- Evdə sizə münasibət necədir?**

- Bizim evdə məşhurluq, şöhrət heç kimin vecinə deyil. Evimizin padşahı da, maliyyə naziri də atamdır.

**- Ananızı çox istəyirsiniz, yoxsa atanızı?**

- Bu necə sualdır? Uşaq vaxtı da bu sualı mənə verəndə, çox əsəbiləşirdim. Atamı daha çox sevirəm. Əslində ondan daha çox qorxuram. Onu çox istədiyimi siyasi cəhətdən deyirəm, çünki evə gedəndə ”Batdın oğlum. İmza: atan” deyə bir mesaj almaq istəmirəm (gülür).

**- Eşitdiyimizə görə, siz rəssamlığı da yaxşı bacarırsınız.**

- Siz də hər eşitdiyinizə inanmayın (gülür). Rəssam deyiləm, ancaq yaxşı şəkil çəkirəm. Məktəb vaxtlarında ən çox sevdiyim dərs rəsm dərsi idi. Şükürlər olsun ki, yaxşı fərasətim də var. Əgər bu sahəyə yönəlsəydim, indi daha yüksəklərdə olardım.

**- Heç nə üçün gec deyil. Bir baxın, Murad Boz müğənni olduğu halda, indi aktyorluğa başlayıb.**

- Bəli. Məncə, onun aktyorluğa başlamağı çox yaxşı oldu.

**- Ondan yaxşı bir aktyor çıxdı, bəs sizdən necə, müğənni çıxarmı?**

- Hesab etmirəm ki, məndən yaxşı müğənni çıxar. Fahriyyə ilə mən ”Aşk sana bənzər” filmində mahnı oxumaq istədik. Studiyaya getdik, 3 ay yarım o mahnını mənə gücələ oxutdurdular. Ancaq Fahriyyə gəlib bircə dəfə studiyaya girdi, oxumaqla işi bitirdi. Bundan sonra anladım ki, mahnı oxumaq mənə görə deyil. Bu filmdə də Muradla bir mahnımız var. Amma mən daha çox vokal hissəsini oxumuşam.

**- Yaxşı bəs o vokal hissəsini oxumanız necə ay çəkdi?**

- 7 ay. Bəlkə də məndən müğənni çıxmaz, amma yaxşı müğənni rolunu oynamağı bacarıram. Yəni, o duyğunu tamaşaçıya yedizdirə bilirəm.

**- Filmdəki qardaşın Muraddan kifayət qədər bəhs etdik. Bir az da həyatdakı bacınız Burcudan danışaq.**

- O mənim bir dənəmdir. Burcunu çox sevirəm. Onun nişanında göz yaşlarımı saxlaya bilmədim. Bacımın böyüdüyünü ilk dəfə həmin gecə hiss etdim. Uşaq vaxtı hesab edirdim ki, o bir oğlandır, sən demə qız imiş.

**- Necə yəni?**

- Bir gün həyətdə oynayanda anam məni evə çağırdı. Mən oyunumu buraxıb evə gəlmək məcburiyyətində qaldığım üçün bir az əsəbiləşdim. Gəlib divanın üzərinə qoyulmuş yorğanın üzərində oturdum. O zaman Burcu çox kiçik idi. Təsəvvür edin ki, hələ göbək bağı düşməmişdi. Sən demə, mən Burcunu yorğanın altında görməmişəm və onun üstündə oturmuşam. Mən onu görməndən bir yandan ağlayıram, bir yandan da bacımın üzərində atılıb-düşməyə başlayıram. Sən demə, onu əzmişəm, ancaq xəbərim olmayıb. O anda bacımın göbək bağı düşdü. Bunu görən anam dedi ki: ”Bax, Burcu oğlan idi, indi sənin üzündən qız oldu”. Onun bu sözü məni çox qorxutmuşdu. Haradasa 10 yaşıma qədər bacımın mənə görə oğlan olduğunu hesab etmişdim.

**Tərcümə etdi: Xəyalə Rəis**